# Müqəddəs sərhədlərimizin etibarlı qoruyucuları

*Avqustun 18-i Azərbaycan sərhədçiləri üçün sadəcə bir təqvim günü deyil, vətənə sədaqət andının, dövlətçiliyimizin qorunması əzminin təntənəsidir. Dövlət Sərhəd Xidmətinin əməkdaşları öz peşə bayramlarını böyük qürur və fərəh hissi ilə qeyd edirlər. Onların üzərinə düşən vəzifə həm də dövlətimizin bütövlüyünü, xalqımızın azadlığını, üçrəngli bayrağımızın şərəfini müdafiə etməkdir.*

Azərbaycan Xalq Cümhuriyyətinin 1919-cu il 18 avqust tarixli qərarı ilə sərhədlərin mühafizəsi haqqında Qanun qəbul olunmuşdu. Bu addım dövlətçilik tariximizin möhkəm sütunlarından birinə çevrildi. O dövrün çətin siyasi şəraitində belə sərhəd məsələsinə xüsusi diqqət ayrılması, milli təhlükəsizlik və müstəqillik ideyalarının əsas yer tutduğunu bir daha göstərir. Ümummilli lider Heydər Əliyev bu tarixi ənənəni müstəqilliyin bərpasından sonra davam etdirərək, sərhədçilərin fəaliyyətinə xüsusi önəm verdi. 2000-ci il avqustun 16-da imzaladığı Sərəncamla avqustun 18-i Sərhədçilərin peşə bayramı günü kimi rəsmiləşdirildi. Bu qərar Azərbaycanın təhlükəsizlik sistemində sərhədçilərin roluna verilən yüksək dəyərin bariz nümunəsi oldu. Əslində, sərhədçilərin peşə bayramının rəsmiləşdirilməsi təkcə bir dövlət sənədi deyildi, həm də dövlətçiliyimizin qorunmasında sərhədçilərin misilsiz roluna verilən qiymət idi.

Azərbaycanın sərhəd mühafizəsi tarixində unudulmaz məqamlardan biri də üçrəngli bayrağımızın Silahlı Qüvvələrdə ilk dəfə dalğalanmasıdır. 1992-ci il avqustun 22-də Naxçıvan Sərhəd Dəstəsində baş verən bu hadisə müstəqilliyimizin rəmzi olan bayrağın sərhəd məntəqəsində ucaldılması ilə yaddaşlara yazıldı. Bu xalqımızın azadlıq iradəsinin sərhədlərdə təcəssümü idi. Sərhəd mühafizəsi istiqamətində görülən bütün mühüm işlərdə Ulu Öndər Heydər Əliyevin uzaqgörən siyasəti dayanır. Şimal və şimal-qərb sərhədlərində ilkin infrastrukturun yaradılmasından tutmuş Dövlət Sərhəd Xidmətinin müasir səviyyədə formalaşmasına qədər bütün proseslər onun adı ilə bağlıdır. Bugünkü sərhədçilərin peşəkar hazırlığı, texniki təminatı, yüksək döyüş ruhu da məhz həmin yolun davamıdır.

Məhz buna görə də Ulu Öndər Heydər Əliyevin sərhəd qoşunlarının formalaşdırılması istiqamətində atdığı qətiyyətli addımlar ölkəmizin öz sərhədlərini müstəqil şəkildə müdafiə etmək gücünə sahib olduğunu sübuta yetirdi. Xüsusilə 2002-ci ildə imzalanan Fərmanla Dövlət Sərhəd Xidmətinin yaradılması Azərbaycanın təhlükəsizlik sistemində yeni mərhələ açdı. Bu sənəd sadəcə inzibati qərar deyildi, dövlətimizin sərhədlərin etibarlı mühafizəsinə verdiyi xüsusi önəmin rəmzinə çevrildi. Həmin qərar sərhədlərin müqəddəs amal uğrunda qorunmasının dövlət siyasətində prioritet mövqedə olduğunu nümayiş etdirdi.

Bu gün Prezident, Ali Baş Komandan İlham Əliyevin qətiyyətli rəhbərliyi ilə Dövlət Sərhəd Xidmətinin fəaliyyəti keyfiyyətcə yeni mərhələyə adlayıb. Son illərdə bu qurumun maddi-texniki bazasının möhkəmləndirilməsi, sərhəd dəstələrində və zastavalarında müasir şəraitin yaradılması sərhədçilərin peşəkar hazırlığının yüksəldilməsinə şərait yaratdı. Dövlət başçısının sərhəd xidmətinin təkmilləşdirilməsi ilə bağlı həyata keçirdiyi kompleks tədbirlər sərhədlərin müdafiəsini ən yüksək standartlara uyğun səviyyəyə qaldırdı. Quruda, havada və suda sərhədlərin qorunması üçün görülən tədbirlər Azərbaycanın müdafiə sistemini daha da gücləndirdi. Bu gün Azərbaycan sərhədçiləri müasir texnologiyalarla təmin olunmuş, yüksək döyüş ruhuna sahib, Vətən sevgisini hər addımda nümayiş etdirən qəhrəman övladlarımızdır. Onların fəaliyyəti sərhədlərin mühafizəsi, həm də dövlətimizin qüdrətinin, xalqımızın birliyinin və azadlığının təntənəsidir.

Dövlət sərhədlərinin möhkəm müdafiəsi milli təhlükəsizliyimizin, ictimai-siyasi sabitliyimizin, xalqımızın rifahının başlıca təminatıdır. Xarici təhdidlərin aradan qaldırılması, dövlətin təhlükəsizliyinə yönəlmiş risklərin qarşısının alınması Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən qətiyyətli tədbirlər həyata keçirilir. Məhz bu qayğının nəticəsidir ki, Azərbaycan sərhədçiləri beynəlxalq terrorizmə, qaçaqmalçılığa, narkotik vasitələrin qeyri-qanuni dövriyyəsinə və qanunsuz miqrasiyaya qarşı qətiyyətlə mübarizə apararaq, ölkənin müdafiə sistemində əvəzsiz rol oynayırlar. Xəzər dənizində karbohidrogen ehtiyatlarının hasilatının, strateji əhəmiyyət daşıyan ixrac infrastrukturunun təhlükəsizliyinin qorunması da məhz Sərhəd Qoşunlarının üzərinə düşən vəzifələrdir. Onlar bu missiyanı uğurla icra etməklə Azərbaycanın enerji təhlükəsizliyinə, daxili sabitliyinə və beynəlxalq imicinə mühüm töhfə verirlər.

Qeyd edək ki, Prezident İlham Əliyevin Dövlət Sərhəd Xidmətinə diqqət və qayğısının əlaməti olaraq 2010-cu il mühüm hadisə ilə yadda qaldı: Dövlət Sərhəd Xidmətinin Akademiyası açıldı. Bu addım sərhədçilərin peşə hazırlığının ən yüksək standartlar əsasında təşkilinə geniş imkanlar açmaqla yanaşı, dövlət sərhədlərinin toxunulmazlığının qorunmasına verilən böyük dəyərin bariz göstəricisi oldu. Akademiyada yaradılan şərait sübut edir ki, dövlət sərhədi yalnız coğrafi anlayış deyil, həm də müstəqilliyin və ərazi bütövlüyünün ən güclü rəmzidir.

Azərbaycan Silahlı Qüvvələrinin ildönümü münasibətilə keçirilən irimiqyaslı birgə əməliyyat-taktiki təlimlərdə sərhədçilərin fəal iştirakı da onların peşəkarlığının, döyüş hazırlığının və Vətənə sədaqətinin təntənəli nümayişi oldu. Bu təlimlərdə sərhədçilər həm də Vətənin sərhədində dayanan sarsılmaz qalxan olduqlarını sübut etdilər. Onların ayıqsayıqlığı, peşəkarlığı və Vətən sevgisi Azərbaycanın təhlükəsizliyinə, xalqımızın gələcəyinə inam yaradır.

Avqustun 16-da Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin imzaladığı sərəncamlar sərhədçilərə göstərilən diqqət və qayğının daha bir bariz nümunəsidir. Bu sərəncamlarla Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçuları mükafatlandırıldı, onların göstərdikləri şücaət, sədaqət və vətənpərvərlik dövlət səviyyəsində yüksək qiymətləndirildi. Azərbaycan sərhədçiləri ölkənin dövlət sərhədinin mühafizəsində, ərazi bütövlüyünün qorunub saxlanılmasında və qarşıya qoyulan tapşırıqların icrasında daim rəşadət nümayiş etdiriblər. Onların bu şərəfli xidmətləri dövlətin ali mükafatlarına layiq görüldü. Sərəncama əsasən bir nəfər "Azərbaycan Bayrağı" ordeni, iki nəfər 3-cü dərəcəli "Rəşadət" ordeni, iki nəfər 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni, bir nəfər isə 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif olundu. Bundan əlavə, 11 nəfər "Vətən uğrunda", iki nəfər "İgidliyə görə", 50 nəfər isə "Hərbi xidmətlərə görə" medalları ilə mükafatlandırıldı.



Bu təltiflər Azərbaycan sərhədçilərinin göstərdiyi fədakarlığın, Vətənə bağlılığın dövlət tərəfindən rəsmi şəkildə təsdiqlənməsidir. Hər bir orden və medal həm də sərhədçilərin gələcək nəsillərə örnək olacaq şərəfli xidmətlərinin rəmzidir. Prezident İlham Əliyevin digər sərəncamı ilə bir nəfərə "general-leytenant", iki nəfərə isə "general-mayor" ali hərbi rütbələrinin verilməsi sərhəd qoşunlarının yüksək komandan heyətinə göstərilən etimadın parlaq göstəricisidir.

Sərhədçilərin təltif olunması həm də bütövlükdə orduya ünvanlanmış mənəvi dəstəkdir. Bu addım göstərir ki, dövlət sərhədçilərin fədakar əməyini, ağır şəraitdə yerinə yetirdikləri şərəfli missiyanı hər zaman yüksək qiymətləndirir.

Azərbaycan sərhədləri həm keçmişin mirası, həm bu günün qarantı, həm də gələcəyin təminatıdır. Bu müqəddəs dəyərin keşiyində dayanan sərhədçilər isə tariximizin qəhrəmanlıq səhifələrini yazmağa davam edirlər. Hər bir dövlətin sərhədləri onun müstəqilliyini və ərazi bütövlüyünü təsdiqləyən əsas sütunlardan biridir. Bu gün Azərbaycan sərhədçiləri öz missiyalarını müqəddəs borc kimi dərk edərək keşiyində dayandıqları hər qarış torpağı canları bahasına müdafiə edirlər. Onlar həm tariximizin, həm də gələcəyimizin qoruyucularıdır.

**Nurlan ABDALOV,**
**"Respublika".**

Respublika.- 2025.- 17 avqust(№172).- S.5.